# BTC - Azərbaycandan dünyaya açılan zəfər qapısı

***Bu gün beynəlxalq aləmə qlobal iqtisadi güc və siyasi zəfərlər reallığı təqdim edən müstəqil Azərbaycanın qazandığı tarixi nailiyyətlərinin hər birinin təməlində Ulu Öndər Heydər Əliyev faktorunun dayanması danılmazdır. Məhz bu gerçəkliklər dövlətimizin milli maraqlarının təmin olunmasında xüsusi rol oynamaqdadır. Bu baxımdan, istər yerləşdiyi coğrafiyada, istərsə də qitələr miqyasında inamlı qələbələrə imza atan ölkəmiz, dövlətimiz qazanılan uğurlarla kifayətlənmir, habelə növbəti nəhəng siyasi-iqtisadi layihələrə imzalar atır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təməlini qoyduğu bu möhtəşəm siyasi kurs Onun layiqli və alternativsiz davamçısı, Prezident İlham Əliyev tərəfindən sarsılmaz iradə və mükəmməl uzaqgörənliklə davam etdirilməkdədir.***

Sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanmasının 29-cu ildönümü tamam olur. Məhz 1994-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın 7 ölkəsini təmsil edən 11 transmilli neft şirkəti arasında imzalanmış bu nəhəng neft sazişi o zamanın gənc Azərbaycan dövlətinin tarixində yeni bir səhifə açmış oldu. Bu, qarşıdakı onilliklərdə əldə ediləcək zəfərlərin ilk addımı kimi şanlı tariximizə yazıldı. Sonradan beynəlxalq aləmdə haqlı olaraq “Əsrin müqaviləsi” adı ilə tanınan bu saziş, yuxarıda qeyd edilənlərlə yanaşı, ölkəmizin iqtisadi müstəqilliyinin əsasını qoydu.

### Heydər Əliyev: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk"

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının təməl daşını təşkil edən “Əsrin müqaviləsi” Azərbaycanın qapılarını xarici sərmayədarların üzünə açmaqla paralel olaraq, uzun illər sovet imperiyasının hərbi gücünün artırılmasına xidmət edən əvəzsiz təbii sərvətimiz olan nefti xalqımıza qaytardı. Məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya əzmlə nümayiş etdirdi. Lakin o da təsadüfi deyil ki, “Əsrin müqaviləsi”nin imzalanmasına həsr olunmuş təntənəli mərasimdə çıxış edən Ulu Öndər Heydər Əliyev bu tarixi kəlamlarını ifadə etmişdi: “Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradırıq... Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq”.

Mühüm faktlardan biri də budur ki, “Əsrin müqaviləsi”nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başlandı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. O cümlədən, “Əsrin müqaviləsi”nin mühüm tərkib hissələrindən birini də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Məlum olduğu kimi, müqavilə imzalanarkən bu məsələ ətrafında gedən müzakirələr zamanı xam neftin ixracı üçün ilkin olaraq Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri marşrutları seçildi. Buna baxmayaraq, gələcəkdə neft hasilatının artması ilə əlaqədar əsas ixrac boru kəmərinə ehtiyac duyulurdu. Bax, bu məqamda Azərbaycan xalqı və beynəlxalq ictimaiyyət dahi Heydər Əliyev fenomeninin bu məsələdə necə qətiyyət nümayiş etdirdiyini şahidlərinə çevrildi. Nəticədə, Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxaracaq Bakı-Tbilisi-Ceyhan boru kəməri ideyası irəli sürüldü. Halbuki, həmin dövrlərdə müharibə vəziyyətində olan, torpaqları əvvəlki iqtidarların naşı və xain siyasətləri üzündən erməni işğalına məruz qalan Azərbaycana qarşı çoxtərəfli təzyiqlər də var idi.




*Ölkəmizdə əldə edilən uğurların ilk şanlı səhifələri Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi”nin reallaşması ilə yazılmışdır*

### Üç dənizin əfsanəsi

Ancaq bu ideyanı qəbul etmək istəməyən bəzi qüvvələrin cəhdlərinə baxmayaraq, Heydər Əliyevin səyi və gərgin keçən danışıqlar prosesinin məntiqi nəticəsi olaraq bu önəmli layihə həyata vəsiqə aldı. Nəticədə, ATƏT-in 1999-cu ilin noyabr ayının 18-də İstanbul şəhərində keçirilən sammiti zamanı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Beləliklə də, “Üç dənizin əfsanəsi” adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün müvafiq hüquqi baza yaradıldı. Daha sonra isə layihənin bəzi detallarının dəqiqləşdirilməsi, lazımi maliyyə mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlara start verildi.

BP şirkəti layihənin operatoru seçildi. Kəmərin tikintisi və istismarı üçün isə BTC Ko. şirkəti yaradıldı. Onun səhmdarları BP (30,1 faiz), ARDNŞ (25 faiz), Şevron (8,9 faiz), Statoyl (8,71 faiz), TPAO (6,53 faiz), ENİ (5 faiz), Total (5 faiz), İtoçu (3,4 faiz), İNPEX (2,5 faiz), KonokoFillips (2,5 faiz) və Amerada Hess (2,36 faiz) şirkətləri oldu. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsində iştirak etmək məqsədilə AzBTC Co. törəmə şirkətini təsis etdi və bu qurum layihənin iştirakçıları olan neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış BTC Company şirkətində 25 faizlik iştirak payı əldə etdi. AzBTC Co. şirkəti daxil olmaqla bütün digər iştirakçılar layihənin dəyərinin 30 faizlik hissəsini öz vəsaitləri hesabına, qalan 70 faizlik hissəsini isə beynəlxalq maliyyə institutlarından, ixrac kredit agentliklərindən və kommersiya banklarından cəlb edilmiş kredit vəsaitləri hesabına maliyyələşdirilməsi ilə bağlı qərar qəbul etdilər. Azərbaycan dövləti adından Azərbaycan BTC Co. şirkətindəki payının maliyyələşdirilməsi isə Dövlət Neft Fondu tərəfindən həyata keçirildi.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən etibarən layihənin gedişi ilə bağlı şəxsən maraqlanır, vaxtaşırı olaraq tikinti işləri ilə tanış olurdu

Nəhayət, 2002-ci il sentyabr ayının 18-də Bakıda-Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bununla da, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının mühüm tərkib hissələrindən olan Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsinə başlanıldı. Kəmərin inşası üçün podratçı şirkətin müəyyən edilməsi məqsədilə beynəlxalq səviyyəli tender elan olundu. Tender prosesinin nəticəsi olaraq Yunanıstanın Konsolideytd Kontraktors Kompani (CCIC) şirkəti qalib elan edildi. 2003-cü ilin fevral ayında Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq kəmərin tikintisinə start verildi. 2004-cü ilin oktyabrında BTC-nin Azərbaycan hissəsi Gürcüstan ərazisindən keçən hissəsi ilə birləşdirildi.

Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyevin qalibiyyətli neft strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi sahəsində misilsiz xidmətlər göstərən Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən etibarən layihənin gedişi ilə bağlı şəxsən maraqlanır, vaxtaşırı olaraq tikinti işləri ilə tanış olurdu. Nəhayət, 2005-ci ilin aprel ayında tikinti işləri yekunlaşdırıldı. Həmin il may ayının 25-də Səngəçal terminalında xam neftin BTC-yə vurulması ilə bağlı rəsmi tədbir keçirildi. Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları İlham Əliyev, Mixeil Saakaşvili və Əhməd Necdət Sezər terminalda quraşdırılmış xüsusi qurğudakı sürgünü açdıqdan sonra kəmərlə ilkin neft axmağa başladı. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı. İyulun 4-də isə neftlə yüklənmiş ilk tanker buradan yola salındı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda, ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan 1767 km-lik Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri “Əsrin müqaviləsi” çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunan xam neftin dünya bazarına çıxışını təmin etmək üçün inşa edilmiş boru nəqliyyat vasitəsidir. Boru kəməri 1500-dən artıq çayla və 13 seysmik qırılma xətti ilə kəsişir. Kəmərin ən yüksək nöqtəsi 2800 metr olan dağlardan keçdiyi yerdir ki, bundan sonra o, Ceyhanda yenidən dəniz səviyyəsinə enir. Kəmərin istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti isə sutkada 1,2 milyon barrel nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin ən böyük uğurlarından sayılan BTC ölkəmizin Avrasiya regionunda mövqeyini xeyli gücləndirmiş, dövlətimizi Cənubi Qafqazın liderinə çevirmişdir. Bu gün Ulu Öndər Heydər Əliyevin adını daşıyan BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. BTC mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edir. Belə ki, bu kəmər nəinki regionda güc faktorunu isbatladı, həm də dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verdi, ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə zəmin yaratdı.

Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış milli neft strategiyası Azərbaycanı regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından birinə çevirmişdir

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi ilə reallaşan və Ulu Öndərin bir neçə onilliklər üçün hesablanan neft strategiyasının həlli və uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünya birliyində siyasi, iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan qüdrətli dövlət kimi tanınır, qəbul olunur. Təsadüfi deyil ki, Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqımıza müraciət edən Prezident İlham Əliyev sülh, xalqlararası birlik və dövlətlərarası əməkdaşlığa əsaslanan bu kəməri ölkəmizin uzunmüddətli inkişafını təmin edən və iqtisadi potensialımızı artıran layihə kimi dəyərləndirmişdir.

Hazırda bu kəmərin coğrafi-siyasi əhəmiyyəti bütün dünya dövlətləri tərəfindən etiraf olunur, bütövlükdə Azərbaycanın neft-qaz ehtiyatlarının dünya bazarlarına ixrac edilməsi üçün şaxələndirilmiş boru kəmərləri sisteminin yaradılması dəstəklənir. Bu gün Azərbaycan nefti, təbii qazı bir neçə marşrut üzrə dünya bazarına ixrac olunur. Bu sistemdə Heydər Əliyevin şah əsərlərindən hesab olunan, sutkada bir milyon barreldən artıq Azərbaycan neftini tam təhlükəsiz şəkildə Aralıq dənizi sahillərinə ixrac imkanına malik olan BTC-nin xüsusi yeri var. Prezident İlham Əliyevin bu barədə fikirləri xüsusi maraq doğurur: “Əsrin müqaviləsi” imzalanmasaydı, təbii ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa olunmazdı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkilməzdi və bu gün biz “Şahdəniz” yatağından qaz hasilatına nail ola bilməzdik. Böyük maraq doğuran TANAP, TAP, “Cənub” qaz dəhlizi ilə bağlı müzakirələr aparılmazdı. İndi Azərbaycanın enerji inkişafına istənilən nöqteyi-nəzərdən yanaşsaq görərik ki, neft və qaz ölkə əhalisinin rifahına xidmət edir. Bu təbii sərvətlərdən əldə olunan gəlir ədalətlə bölünür ki, bu da əhalinin sosial müdafiəsinin etibarlı təminatı üçün başlıca amildir...Azərbaycan nefti, Azərbaycanın təbii sərvətləri Azərbaycan xalqının xidmətindədir və bu əsas məqsəddir”.

Göründüyü kimi, Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış milli neft strategiyası Azərbaycanı regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından birinə çevirmişdir. Ölkəmizdə əldə edilən uğurların ilk şanlı səhifələri Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi”nin reallaşması ilə yazılmışdır.

**_Afət Tahirqızı_**